ədalət.- 2022.- 24 sentyabr.- S.8.

Elman Tovuz



# Nəyinə oynayım mən bu havanın

*Mən ki hər havaya salmıram meyil,*
*Qorxuram yenə də aldada zəndim.*
*Sənin də çaldığın o hava deyil,*
*Daha sümüyümə düşmür, əfəndim,*
*Nəyinə oynayım mən bu havanın.*

*Kəsdi, ömrü-günü boşuna kəsdi*
*Keçəllər, kosalar, şaxta babalar...*
*Hardan peyda oldu,*
*hayandan əsdi,*
*Tərpətmir ruhumu saxta havalar,*
*Nəyinə oynayım mən bu havanın.*

*Ana laylasına yatıb gəlmişəm,*
*Nazına oynayım mən bu havanın?*
*Qara zurnasını atıb gəlmişəm,*
*Sazına oynayım mən bu havanın?*
*Neyinə oynayım mən bu havanın?*

*Sinəmdə bir çınqı köz havası var,*
*Çəkmə mizrabını ümidlərimə.*
*Mənim qollarımın öz havası var,*
*Əsəbim oynayır ayaq yerinə...*
*Nəyinə oynayım mən bu havanın.*

*Başıma payızın "pullarl" yağır,*
*Könlümü zamantək ala bilməzsən.*
*Quş kimi yüngüləm, daş kimi ağır,*
*Sən mənim havamı çala bilməzsən,*
*Nəyinə oynayım mən bu havanın.*

*Gözümə bir ovuc çata-çatmaya,*
*Torpaq davasına oynayıram mən.*
*Baxıb qol qaldıran ata-anaya,*
*"Şəhid" havasına oynayıram mən,*
*Nəyinə oynayım mən bu havanın.*

*Çıxdım sınağından min cürə fəndin,*
*Mənə, ağlamaq da olmadı asan...*
*Dəli damarımı oyat, əfəndim -*
*Oynaya bilmərəm havalanmasam,*
*Nəyinə oynayım mən bu havanın.*